УДК 297; 342.7.
KBT 63.3(5 Aze)5; 87.3(4\8)
http://dx.doi.org/10.29228/metafizika.8

*Əhməd NİYAZOV**
*(Azərbaycan)*

*Azərbaycan İlahiyyat İnstitutu*

# İslahat konsepsiyasının bəzi terminoloji əsasları: analitik təhlil

***Xülasə***

*Cəmiyyətdə və ictimai-sosial həyatda gedən köklü dəyişmələri ifadə edən islahat, mütərəqqi ideyalar həyata keçirərək əldə edilən yenilikçilik fəaliyyəti, yenidənqurma və yenilikçi düşüncələri ifadə edir.Ümumbəşari mədəni və mənəvi dəyərlər baxımından bir hadisə kimi islahatçılıq əksər hallarda Orta əsrlər Qərb mədəniyyətinin çiçəklənmə dövrü kimi dünya ədəbiyyatında öz yerini aldı və "ən böyük mütərəqqi bir çevriliş kimi" (F.Engels) sosial və mədəni gerçəkliyin Avropasentrik meylləri Qərb aləmində fransız sözü ilə "renessasns" adlandırıldı. Bu prosesə dünya tarixi və dünya mədəniyyəti mərhələsi kimi baxanlar şərqdəki bu cür irəli hərəkatı və dəyişməni "Şərq renessansı" adlandırdılar. Həqiqətdə Müsəlman şərqi əksər hallarda reform mənasında özünəməxsus terminlərdən istifadə etmişdir. Şəhər mədəniyyətinin yeni istiqamətdə sürətlə inkişafı, universal proseslərin unikallığı və yaxud bəşər tarixinə təkan verən dəyərlər ümumi-metodoloji müstəvidə həmişə şərq motifləri ilə səciyyəvi xarakter alaraq şərq prinsiplərinə məxsus ifadə edilmişdir. Bu baxımdan Müsəlman şərqində islahat hərəkətləri tədqiq sahəsində elmi dövriyyədə müxtəlif adlarla öz əksini tapmışdır. Belə ki, məna baxımdan bir hərəkatı təzahür ettirən bu qavram istər müsəlman şərqi, istərsə də digər cəmiyyətlərin dövri mətbuatı, eləcə də elmi dövriyyəsində eyni mənanı ifadə edən müxtəlif adlarla ifadə edilir. Bunlar eh-*

*Fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan İlahiyyat İnstitutu, İslamşünaslıq kafedrasının müdiri, ahniyazov@hotmail.com, https://orcid.org/0000-0002-9886-8785

*ya/الاحياء, islah/الاصلاح, nahda/النحضة tədcid/التجديد və təcəddüd/التجدّد terminləri, həmçinin Azərbaycan elmi mühitində dirçəliş, intibah, islahat, aydınlanma və sair kimi qavramları əhatə edir. Məqalə bu terminlərin analitik təhlilindən ibarətdir.*

**Açar sözlər:** *Termin, islahat, Şərq, Qərb, Azərbaycan, Müsəlman.*

## *Giriş*

Bəşərəriyyətin dəyişməyən cəhətlərindən biri inkişafdır. Çünki insan düşünən varlıqdır və onun düşüncə gücü mövcud vəziyyətin paradokslarını götür-qoy etməklə yanaşı gələcək həyatın parametrlərini də həmişə müzakirə obyekti etmişdir. Müasir texnologiya və elmi nailiyyətlər məhz insanın düşünmə qabiliyyəti əsasında formalaşmışdır. Bu baxımdan bəşər tarixində elə dövrlər mövcuddur ki, onlar yeni bir əsrin, yaxud müəyyən mərhələnin başlanğıcı kimi yaddaşlara həkk olub, etalon xüsusiyyəti daşıyır. İslahat hərəkatı belə bir məfhum kimi tarixə keçmiş bir termindir.

Şəhər mədəniyyətinin yeni istiqamətlərdə sürətlə inkişafı dünya mədəniyyətinin bir mərhələsi kimi renessans islahatını meydana gətirmiş oldu. Bir ictimai şüur forması kimi həyatın hər sahəsinə təsir edən bu proses dünya elmi müstəvisində geniş miqyasda təhlil edilən çalarlı məsələlərdən birinə çevrildi. Universal səciyyəli ümumdünya proseslərini özündə cəmləşdirən bu cərəyan sosial-mədəni, dini, estetik, bədii, fəlsəfi və sair sahələrin tədqiq obyektinə çevrilməklə yanaşı bu məsələyə sadəcə avropasentrik prizmadan baxanlar olduğu kimi, bunu bir dünya mərhələsi çərçivəsində düşünənlər də olmuşdur. Problemin istər mədəni bir fenomen, istər ideoloji axın kimi tədqiq edilməsində fikri təmayüllərin terminaloji məfhumları konseptual vurğu kimi həmişə diqqəti cəlb edir. Bəzən universal mənada ümumiləşdirilmiş baxışları ifadə edən sinonim xarakterli istilahlardan istifadə edilməklə yanaşı, bəzən də mədəni hadisənin daxili məzmununu ehtiva edən regional səciyyəli istilahlara da rast gəlmək mümkündür. Həmçinin avropasentrik platformaya xas istilahlar ümumbəşəri məna kəsb edən terminləri ifadə edərkən milli mədəniyyətlərə xas istilahlar milli mənşə formasında özünü əks etdirmişdir. Qərb aləmində gedən proseslərlə bağlı reform, renessans və sair istilahlar ümumbəşəri səciyyəli məfhumlara çevrilmişkən, Müsəlman Şərqində təcdid, təcəddüd, ehya və sair kimi istilahlar bölgəyə xas qapalı

prosesləri əks etdirən ümumişlək məfhumlara çevrilmişdir.

Qeyd edək ki, terminologiya bütünlükdə bəşər mədəniyyətin vahidliyinin ümumiliyinə xidmət edən ünsürdür və mədəni hadisələrin müxtəlifliyinə görə regional, yaxud qeyri-regional xüsusiyyətə malik ola bilər. Bu baxımdan Müsəlman Şərqində dirçəliş, intibah, ehya, təcdid, təcəddüd və sair terminlər bir-birinə yaxın mənalı ancaq fərqli kontekstlər ifadə etməklə hər biri əslində ictimai-tarixi və mədəni hadisələrin dəyişməsinə bağlı islahat xarakterli terminlərdir. Həmçinin qeyd etmək lazımdır ki, əgər islahat hərəkatı əksər hallarda qərb aləmində meydana gələn renosans tipli ictimai-sosial bir hadisə kimi qəbul edilirdisə, müsəlman cəmiyyətlərində ictimaiyyəti xürafat və batil inanclardan təmizləyərək İslam dininin saflığını qoruma və dinin əsl kimliyini insanlara çatdırma məntiqinə xidmət edən hərəkat kimi özünü əks etdirmişdir. Təcdid, yenilik və sair adlandırılan islahat hərəkatı kimi qəbul edilmişdir. Məhz bu mənada təcdid hərəkatının nümunələri çoxdur.[1] Bu hərəkatın üzvləri özlərini mücəddid adlandırırdılar. Azərbaycan tarixində mücəddidi hərəkatın nümunələrinə XIX əsrin əvvəllərində də rast gəlmək mümkündür.

Eyni zamanda təcəddüd hərəkatı da bir digər islahatçılıq nümunəsidir. Dinin müasir ictimai və iqtisadi şərtlərə görə dəyişdirilməsi mənasında yenilənmə modernist bir yanaşmanı ifadə edir.[2] Müsəlman Şərqində Azərbaycana aid bu iki mədəni hadisə müxtəlif dövrlərdə təzahür edən milli mədəniyyət nümunələridir. Çünki mədəniyyətlər qovşağında yerləşən Azərbaycan tarixən böyük bir sivilizasiya yolu keçmişdir. Məhz buna görədir ki, bölgədə meydana gələn ictimai meyarlar həm bölgədə həm də digər müsəlman coğrafiyalar üçün tərəqqipərvər töhfələr və ümumibəşəri dəyərlər təqdim etmişdir. Bunun bir nümunəsi də həmin təcdid hərəkatının töhfələridir.

Qeyd edilən bu iki nümunə kimi islahat xarakterli ictimai proseslər Müsəlman Şərqində[3] özünə xas terminalogiya silsiləsi meydana gətirmişdir. Məna baxımından

---

[1] Niyazov, Ə. (2019). *Azərbaycanda ilk islahatçılıq hərəkatı.* Azərbaycan İlahiyyat İnstitutu "Din araştırmaları jurnalı", sayı 2(1). Bakı. (s.213).

[2] Kərimova, A. (2019). *Əhməd bəy Ağaoğluna görə İslam təhsil sisteminin və mədəniyyətinin problemlərində islahat zərurəti.* Metafizika jurnalı, (ISSN 2616-6879) 2 (3), (s. 85).

[3] Müsəlman Şərqindəki islahatçıları belə sadalamaq olar: Hind alt qitəsində Şah Vəliyyullah əd-Dehləvi (v.1762), ərəb yarmadasının mərkəz hissələrində Məhəmməd ibn Əbdülvahhab (v.1728), qərbi Afrikada Osman ibn Fuzi (v.1817), Yəməndə Məhəmməd ibn Əli əş-Şövqani (v. 1834), şimali Afrikada Məhəmməd ibn Əli əs-Sənusi (v.1859), Dağıstanda Əli Qayayev (1946), Azərbaycanda Nəqşibənd mücəddidiləri İsmail Siracəddin Şirvani (1848),

bir hərəkatı təzahür etdirən bu qavramlar istər müsəlman şərqi, istərsə də digər cəmiyyətlərin dövri mətbuatı, eləcə də elmi dövriyyəsində müxtəlif konseptual vurğu ifadə edən terminlərlə ifadə edilir. Bunlar ehya/الاحياء, islah/الاصلاح, nahda/النحضة təcdid/التجديد və təcəddüd/التجدّدvə sairə kimi terminləri, həmçinin Azərbaycan elmi mühitində dirçəliş, intibah, islahat, aydınlanma və sair kimi qavramları əhatə edir.

Bir dövrün problemləri arasında ictimai şüur formasını və ya hər hansı bir düşüncəni, və yaxud təfəkkür tərzini meydana gətirən proses və nəzəriyyələr nə qədər əhəmiyyət kəsb edirsə, onlara aid istilahlar da bir o qədər əhəmiyyətlidir. Bu baxımdan istilahlar dini, elmi, mifaloji və fəlsəfi dünyagörüşlər, yaxud düşüncələr hamı tərəfindən qəbul edilmiş mənada işlədilən xüsusi sözlərdə öz əksini tapır.[1] İstilah kəlməsi terminalogiyada elm, sənət, peşə kimi müəyyən ixtisas sahəsinə aid anlayışı dəqiq ifadə edən sözə və ya söz birləşməsinə deyilir.[2]

Məqalə bu terminlərin analitik təhlilindən ibarətdir.

### *"İslahat/الاصلاحات" termininin etimologiyası*

İslahat ərəb dilindən alınma söz olsa da Azərbaycan dilində daha çox termin kimi istifadə edilən bir sözdür. Ərəb dilində onun yazılış qaydası الاصلاحات-dır. Bu söz bir termin kimi cəmiyyətdə və ictimai-sosial həyatda gedən köklü dəyişmələri ifadə etməklə yanaşı, mütərəqqi ideyalar həyata keçirərək əldə edilən yenilikçilik fəaliyyəti, yenidənqurma və yenilikçi düşüncələri ifadə edir.[3]

İslahat termini istər ümumdünya, istər milli-regional bir termin kimi bir baxıma renessans termininin sinonimi kimi istifadə edilmişdir. Qeyd edək ki, "ən böyük mütərəqqi bir çevriliş kimi" (F.Engels) sosial və mədəni gerçəkliyin avropasentrik meylləri Qərb aləmində fransız sözü ilə "renessans" adlandırıldı. Bu prosesə dünya

---

Molla Məhəmməd Yaraği Dağıstani (1838), Şüeyb Əfəndi ibn İdris Baqini Qandaxi (1909), Əhməd Ağaoğlu (1939) və sair islahat hərəkətlərinin qabaqcılları kimi fəaliyyət göstərmişdirlər.

[1] Heyət. (2005). *Klassik Azerbaycan ədəbiyyatında işlənən ərəb və fars sozleri lüğəti,* Bakı: Şərq-Qərb, "İstilah" maddəsi.

[2] الاصطلاح "əl-İstilah" ərəb dilindən alınma söz olub, kəlmə mənası "sözləşmək", "qərarlaşmaq", "razılığa gəlmək" deməkdir. (Öznurxan Həlim.(2016). *"İstilah" maddəsi,* Dəyanət İslam Ensklopediyası. İstanbul, I. 575).

[3] İşpirli, M. (1999). *"İslahat" maddəsi,* Dəyanət İslam Ensiklopediyası-D.İ.A, 19-174.

tarixi və dünya mədəniyyəti mərhələsi kimi baxanlar[1] Şərqdəki bu cür irəliləmə hərəkatını və dəyişməni "Şərq renessansı" adlandırdılar. Həqiqətdə Müsəlman Şərqi əksər hallarda reform mənasında özünəməxsus terminlərdən istifadə etmişdir. Şəhər mədəniyyətinin yeni istiqamətdə sürətlə inkişafı, universal proseslərin unikallığı və yaxud bəşər tarixinə təkan verən dəyərlər ümumi-metodoloji müstəvidə həmişə Şərq motivləri ilə səciyyələnərək Şərq prinsiplərinə məxsus ifadə edilmişdir. Ancaq qeyd etmək yerinə düşərdi ki, İslam dini başda onun hüquq sistemi olmaqla digər bütün sistemlərdən orijinallığı ilə fərqlənən bambaşqa bir təsnifata sahibdir.[2]

İslahatçılıq təşəbbüsləri tarix boyu davam etmişdir. Mövcud siyasi, ictimai və dini mühitlə razılaşmayıb içində yaşadıqları cəmiyyətin həyat tərzini rədd edərək öz düçüncələrini bir nicat yolu kimi onlara təqdim edən toplum qabaqcıllarını islahatçılar adlandıra bilərik. Onlar adətən kortəbii təqliddən uzaq olmuş, hakim dairələrə qarşı həmişə məsafəli olmuşdurlar.[3]

## *"İslah" kəlməsinin etimologiyası*

İslah (الاصلاح) ərəb mənşəli söz olub, kəlmə mənası normal hala qaytarma, bir şeyin pozulmuşluğunu düzəltmə mənasında işlənir.[4]Kəlmənin mənasını ictimai funksiyası baxımından izah edən bəzi alimlərə görə "fəsad"ın ziddi kimi məna daşıyır.[5]"Salah/sülh" sözü də bu kökdən gələn bir kəlmədir. Dilçi alimlərdən İbn Mənzur

---

[1] Renessansın ümumbəşəri, yaxud milli-regional olması haqda mübahisələr elm dünyasına yad bir mövzu deyil. Renessansın məhz Qərbi Avropaya məxsus sayan L.M. Batkin, L. Eydlin və V.İ Rutenburgla yanaşı bu prosesin ümumbəşəriliyini qəbul edən və bu mənada Şərq Renessansının mövcudluğunu müdafiə edən N.İ.Konrad, A.Flosev, eyni zamanda renessansı dünya mədəniyyətinə xas qanunauyğunluq kimi qiymətləndirən İ.S.Braginski kimi qlobal bir irəliləmə hərəkatı olduğunu deyənlər də mövcuddur. (Məmmədova Süsənbər. (1997). *Azərbaycan renessansının fəlsəfi-estetik problemləri.* Bakı: Elm nəşriyyatı. (s. 13).

[2] Jaseph, S. (1977). *İslam hüququna giriş*. (Tərcümə: Mehmət Daş-Abdulqadir Şənər.) Ankara. (s. 9).

[3] Uyanıq, M. (1990). *Günümüz İslam düşüncəsində islahat qavramı*, Journal of Islamic Research, Vol.4, Num.1, January. (s. 49-56).

[4] İbn Badis, Şeyx Abdulhəmid ibn Məhəmməd Mustafa əl-Məkki. (1982). *Təfsiru İbn Badis fi mecalisit-təzkir min kelamil-hakimil-xabir*, Qahire, 3/25.

[5] İbn Faris Əbul-Hüseyn Əhməd ibn Faris ibn Zəkəriyya. (2011). *Mucem Məqayisul-Luğa*, (Təhqiq: Abdussalam Məhamməd Harun, Beyrut: Daru-Cil, I-III), (3-303).

"salah" sözünü "fəsad"ın ziddi kimi izah edir, "islah"ı "ifsad"ın, "istislah"ı isə "istifsad"ın ziddi kimi vermişdir.[1]

Digər dilçi alimlərə görə "islah" yaxşılığı arzu edərək onu bərqərar etmək və fəsad və əyriliyi düzəltməkdir. (إرادة الخير و تقويم العوج /İradətul-xeyr və təqvimul-ivəc).[2] Fərdi və ictimai islah, sosial, iqtisadi, mədəni və həyatın bütün sahələrini əhatə edən bir prosesdir. Bu baxımdan "islah" hər bir ictimai quruluşda toplum nizamı əsasları arasında təzahür etdirir.

"İslah" kəlməsi termin kimi həm də İslam hüququ sahəsində geniş istifadə edilən bir istilahdır. İslahatçılıqda bu atribut həm də "Şərq renessansı"nın xarakterik xüsusiyyətidir. Məlumdur ki, istilahların əsas xüsusiyyəti müəyyən bir qrupun bir sözü hərfi mənasından uzaqlaşdıraraq yeni bir möhtəvada istifadə etməsidir.[3] İslam hüququ tarixində bu istilah daha xüsusi formada, hüquqi sahədə hökmlərin təkrar təsis edilməsi mənasında işlədilmişdir.[4] Belə ki, vəhyin nazil olduğu dövr dinin digər sahələri kimi həm də İslam dini hüququnun formalaşdığı bir mərhələdir. Bu dövrdə Müsəlman hüququnun təşəkkül sistemində özündən əvvvəlki Cahiliyyə[5] örf və adətləri şəklində təzahür edən normalara qarşı dərhal sərt bir mövqedən çıxış etmədi. Əksinə onların ilahi əsaslı yaxud vəhysentrik prinsiplərə uyğun olub olmadığını ölçü alaraq hüquqi normalar meydana gətirmə siyasəti güdmüşdür. Bir neçə kateqoriyada şaxələnən bu metodlardan[6] biri məhz yuxarıda qeyd etdiyimiz kimi hökmlərin təkrar

[1] İbn Mənzur Əbul-Fadl Cəmaləddin Məhəmməd b. Mükrim. (1997). *Lisanul-ərəb.* Beyrut: Daru-sadr. (I-XV). (4.60-61).

[2] Şeyx Haşim Məhəmməd. (1989). *Silsilətul-Minhac.* Küveyt: Məktəbətud-Darul-bəyan. (2-66).

[3] Cürcani Seyyid Şərif. (2003). *Kitabut-tarifat.* Beyrut. (s. 51).

[4] Heyət. (2016). *İslam hüququ (İslam hüququna giriş, ailə hüququ, miras və cəza hüququ).* İstanbul. (s. 87).

[5] Mədəni və oturaq həyat tərzi olan millətlərdən fərqli olaraq köçəri və yaban xarakterli olması, elm-ürfandan və həmçinin Allah inancından uzaq olmaları baxımından İslamdan əvvəlki ərəb cəmiyyətinə "cahiliyyə dövrü ərəbləri" deyilmişdir. Bu millət Qahtani və Adnanilər kimi iki ana qoldan gəlir. Qahtanilər Ərəbistan yarımadasının cənubunda, Adnanilər isə şimalında yaşamış və müxtəlif qollara ayrılmışdırlar. (Zeydan Abdulkərim. (1969). *əl-Mədxəl li dirasətiş-şəriətil-İslamiyyə.* Bağdad. I-8; Karaman Xeyrəddin. (2007). *İslam hüquq tarixi.* İstanbul. (s. 42).

[6] Sözü gedən bu üsullar İslam hüququ baxımından üç kateqoriyada təhlil edilir; İbqa, ilğa və islah.

1) **İbqa/الإبْقَاءُ**; İslam hüququ termini kimi bir hökmün tətbiq edilməsini olduğu kimi saxlamaqdır. Bu kateqoriyaya görə Cahiliyyə dövrünün ictimai zəmini hər cəhətdən çürük hesab

təsis edilməsi baxımından islah üsuludur. Bu üsula görə Cahiliyyə dövrünün bəzi normaları mahiyyəti baxımından vəhyin özünə müvafiq olsa da, bu normaların tətbiqi baxımından uyğun olmayan cəhətləri lazımi düzəltmələr əsasında qəbul edilirdi. Cahiliyyə dövründə miras qoyan mülkiyyətində olan hər şeyi istədiyi miqdarda hətta hamısını vəsiyyət edə bilərdi. İslam hüququna görə vəsiyyət etmə

---

edilmirdi. Şeir sənətinin zirvədə olduğu kimi bəzi sahələr yüksək inkişaf mərhələsi yaşayırdı. O cümlədən dövrün elə adətləri var idi ki, onlar o cəmiyyət üçün hüquq normaları baxımından ideal bir toplum dizayn ünsürü sayılırdı. İslam hüququ əsl etibarilə vəhysentrik orijinal bir hüquq olsa da, təşəkkül tapdığı dövrdə məhz həmin ideal hüquq normalarını saxlayaraq olduğu kimi davam etdirmişdir. İki şahid əsasında bağlanan "**nikah əqdi**", məşvərət əsasına dayanan "**şura prinsipi**", and içmə və yemin etmə üsulu "**qasamə**", müttəhim adına pul cəzasını ödəyən yaxın qohumlar "**aqilə**" və Haram aylarda müharibə qadağası İslam dinində də hökmləri olduğu kimi davam edən qayda qanunlar oldu.

**Nikah əqdi şəkli;** Cahiliyyə dövründə istibza, şiğar, makt, siğə/mütə, bədəl və sair nikahlarla yanaşı İslam dinindəki nikahla eyni olan bir nikah növü mövcud idi. Bu nikahın şərtlərinə görə bir kimsə digər bir kimsədən qızını, yaxud bacısını istəyərdi. O da razılıq verərsə, istəyən şəxsə nikah edərdi. Qadına mehr verilərdi. (Buxari, Nikah, 33.) Hz. İbrahimdən qalan bu nikah İslam tərəfindən qəbul və ibqa edilən yeganə nikah adətidir. (Ali Osman Ataş. (1996). *İslama görə cahiliyye ve Əhli-kitab örf ve adetleri, İstanbul.*(s. 348).

**Şura**; Görüləcək işlərin əhli olanlar tərəfindən müzakirə edilməsi və nəticəsi haqqında qərar qəbul edilməsinə "şura" və eyni zamanda məşvərət deyilir. İslam dini Cahiliyyə dövründə tətbiq edilən bu adəti olduğu kimi saxlayaraq, inzibati işlərdə bu prinsipi tətbiq edirdi. Hz. Məhəmməddən ən çox hədis rəvayət edən Əbu Hüreyrə bir idarəçi kimi onun bu cəhəti ilə bağlı belə demişdir: "Mən Rəsulullahdan çox məşvərət edən birini görmədim." (Tirmizi, Cihad 35.) Həmçinin Qurani-Kərimdə "Onlarla məşvərət et" (Ali İmran 3/159) ayəsi ilə Hz. Məhəmmədə tövsiyyə edilmişdir.

**Haram aylar**; Qəməri təqvimdə on iki aydan Məhərrəm, Zülqadə, Zülhiccə və Rəcəb ayları müharibə etməyin qadağan edildiyi mənasında "haram aylar" – "əl-əşhurul-hurum" adlandırılır. Müsəlmanlıqdan əvvəl (cahiliyyə dövründə) ərəblər arasında qəbilələrarası müharibələr səngimək bilmirdi. Təkcə bu qeyd edilən aylarda müharibə etmək qadağan edildiyinə görə ictimaiyyətdə sülh və əmin-amanlıq şəraiti hakim olardı. Əgər kimsə bu aylarda qan tökərsə bu hadisələrə "əhdindən dönüb yalançı çıxmaq", "haq yolundan ayrılmaq" və "günaha batmaq" mənasında faciranə və ya ficar deyilmişdir. Bu mənada ficar müharibələri məşhurdur. Hz. İbrahimdən etibarən bir ənənə kimi tətbiq edilib gələn bu adət İslam dinınində də qorunmuşdur. Qurani-Kərimdə bu haqda deyilir: "Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir (İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür)." (Tövbə 9.36-37)

2) **İlğa/الْإِلْغَاء**; Ləğv etmək deməkdir. Cahiliyyə dövrünün əksər adətləri mahiyyəti etibarı ilə İslam dininin prinsiplərinə zidd idi. O dövr üçün faiz, qumar, içki, ögey ana ilə evlənmə, övladlığa götürmək, iki bacını bir nikahda tutmaq və sair adətlər ərəb yarımadasında geniş yayılmışdı. Vəhyin nazil olduğu cəmiyyətdə həmin adətlər İslam dinini qəbul edənlərə qadağan edilir, bu cürə iş tutmaq günah hesab edilirdi. Bu baxımdan həmin hökmlərə İslam hüququnun ilqa/ləğv etdiyi hökmlər deyilir. (Heyət. (2007). (s. 87).)

*DOI 10.29228/metafizika.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

mahiyyətcə qəbul edilən bir hüquqi norma ikən miras qoyanın varislərini vərəsədən məhrum edəcək tərzdə vəsiyyət edilməsi ədalət prinsipinə ziddir. Bu baxımdan İslam Cahiliyyə dövründəki vəsiyyət normasını islah edərək qəbul etmişdir. Miras qoyanın vəsiyyət hüququna məhdudiyyət qoyaraq mülkiyyətindəki maldan ancaq üçdə birini vəsiyyət edəcəyinə hökm etmişdir.[1] Nikaha xitam vermək ailə hüququnun mühüm bir qismidir. Bəzi dinlərin (Xristiyan katolik məzhəbinin) boşanmağı qadağan etməsinin əksinə İslam hüququ ailə birliyinin davam etdirilməsinin mümkün olmadığı hallarda qadın və kişiyə boşanma imkanı tanımışdır. Bu baxımdan İslam Cahiliyyə dövründə olan boşanma adətlərini məhdudlaşdırdıqdan sonra boşama hüququnu islah prosesindən keçirərək özününkiləşdirmişdir.[2] Evlənmək üçün nikahlanmaq və nəsil artırmaq İslam dinində peyğəmbərlərin bəşəri dəyərlərindən hesab edilən bir prosesdir. Cahiliyyə dövründə ərəblər arasında çoxarvadlılıq (polyqamiya) adəti geniş yayılmışdı. İslam dini təkarvadlılığı (monoqamiya) əsas alan bir ailə sistemi gətirərək fövqəladə hallarda isə dördə qədər qadınla evlənməyə icazə verdi.[3] Cahiliyyə dövrünün evlilik müəssisəsini məhdudlaşdırmaqla islah edərək özününküləşdirmiş oldu.

### *İstislah/Maslahat kəlməsinin etimologiyası*

İstislah İslam hüquq fəlsəfəsində ikinci dərəcəli (fəri) dəlillərdən hesab edilir və İslam hüququnun əsas mənbələrindən biridir. Kəlmə mənası ictimai bir funksiya kimi həm "fayda əldə etmə", həm də "zərəri dəf etmək" mənasında sözdür.[4] Bu dəlil xüsusilə də şəriətin ümumi qaydaları baxımından qəbul və ya rədd edildiyi haqqında hər hansı bir dəlil, yaxud bir arqument olmayan hallarda insanlara fayda verən və onlardan həm də bir zərəri dəf edən xüsusiyyətinə malik bir hökmdür.[5]

---

[1] Hz Məhəmmədin əshabələrindən Sad b. Vaqqas xəstə və yatağında ikən miras qoyacaq malının tək varisi kimi qızı üçün çox olduğuna qərar verdi və malının çox hissəsini vəsiyyət edərək başqasına sədəqə vermək istədi. Bunu eşidən Peyğəmbər ona: "Malından üçdə birini vəsiyyət edə bilərsən. Əslində bu da çoxdur. Halbiki varislərinin səndən sonra imkanlı olması onları möhtac qoyub getməyindən daha xeyirlidir." (Buxari, Vəsaya, 2-3.) Bu məşhur hədis vəsiyyət etmə hüququnu üçdə birlə məhdudlaşdırmışdır.

[2] *Qurani-Kərim*, Bəqərə, 2.(229).

[3] *Qurani-Kərim*, Nisa, 4.(3-129).

[4] Heyət. (2005). *Elmihal (*Türkiyə Dəyanət Vəqfi yayınları (I-II)), Ankara, (1).151.

[5] Abdullah, Q. (2007). *Fiqh üsulu*. (Tərcümə edən: M. Camalov), Bakı. (s.138).

İstislah bir termin kimi hüquq qaydaları ilə ictimai hadisə arasında müvazinətin qurulmasına xidmət edir. Hüquqi bir mənbə kimi istislah özünün məqsədi və hədəfi ilə ictimai mənafeyin birgəliyini təmin edir. İstislah, müəyyən mənada, hüquq nizamlama metodudur. İslam hüquq fəlsəfəsi baxımından hüququn qayəsi ümmətin ictimai sabitliyini qorunmaq, sülhün təmin edilməsi, cəmiyyət nizamının qüsur və nöqsanlarını aradan qaldıraraq islah etmək, fərdi və ictimai mənafeyə xidmət edən "islah"ın təmin edilməsidir. Bu düşüncə eyni zamanda İslam hüququnun da ana qaynaqları hesab edilən Qurani-Kərim və hədislərin əsas prinsiplərindəndir.

Həmçinin İslam hüququnun ümumi qayələrindən biri də ictimai münasibətləri tənzimləyərək onu qorumaq, ictimai sabitliyin təminini "islah" əsasında yerinə yetirmək, fərdin və cəmiyyətin mənafeyini güdərkən eyni zamanda buna mane olan əngəlləri də dəf etmək və ortadan qaldırma məqsədi güdür. Digər ifadə ilə fərdin və cəmiyyətin xeyri istiqamətində bir funksiya icra edərkən həm də bu istiqamətdə zərərli əngəlləri də ortadan qaldırma əsasına xidmət edir. Bu da özlüyündə ictimai mənafeyin bərqərar olmasını doğuran amildir. Ən əsası odur ki, İslam gətirdiyi hökmlər əsasında maddi və mənəvi zərərləri ortadan qaldırmağı hədəfləyir. Çünki bir qavram olaraq istislah/maslahat "cəmiyyət və fərdlər baxımından əksər hallarda və ya daim yaxşılığın "salahın" hasil olduğu bir fel" mənasında istifadə edilir.[1]

### *"Təcdid"və "mücəddid" kəlməsinin etimologiyası*

Təcdid (التجديد) əslən ərəb dilində bir söz olub "جدّ/cidd" kökündən törəmişdir və "yeniləmək", "yeniləşdirmək" və yaxud "təzələmək" mənalarına gəlir.[2] Cəm halı yeniliklər, yeni müvəffəqiyyətlər, yeni gedişat deməkdir. Həmçinin bu kəlmə bir mənası "yeniləmək", digər mənası isə "yenilənmək" olmaqla bir şeyin əslinə müvafiq şəkildə dəyişməsidir.[3] Təcdid həm də nahda/ mənasında da işlədilir. İslahatçılıq terminlərindən təcəddüd və mücəddid terminləri də bu kəlmədən törəmişdir. Bu bir baxıma İslamın kökünə qayıdış təmayülləri kimi qiymətləndirilmişdir.

---

[1] İbn Aşur Məhəmməd Tahir. (2013). *İslam hüquq fəlsəfəsi/Gayə problemi/Məqasiduş-Şəriətil-İslamiyyə*, (Tərcümə: Akyüz, V. & Erdoğan, M.), (s.67).

[2] İbn Mənzur. (1997). *Lisanul-ərəb*. Beyrut: Daru-sadr. (I-XV). (III-175).

[3] İsmail, Q. (2007). *"Mücəddid" maddəsi*. Dini Qavramlar Sözlüyü. Ankara: Dəyanet İşləri Başqanlığı Yayınları. (s. 482).

"Yeniləmək", "yeni bir yol açmaq" mənaları verilən təcdid yeniləmənin bir şeyin əslinə müvafiq təzdə aparılmasını ifadə edən bir kəlmədir.[1] İslahat terminlərindən olan təcdid kəlməsinin əsas ifadə etdiyi məna da budur və kəlmənin əsasını təşkil edir.

Təcdid hərəkatının qabaqcıllarına "mücəddid" deyilir. "Şərq renessansı"nın səciyyəvi hallarından biri kimi təcdid müsəlmanlar mühitində iki mərhələdə cərəyan etmiş mədəni prosesin adıdır. Hər şeydən əvvəl "təcdid", islahat qavramından daha məhdud bir çərçivəyə sahib olub, dini dəyərlərə yenidən etibar qazandırmaq, onları ətrafında cərəyan edən şübhələrdən və bidətlərdən təmizləmək və İslam prinsiplərinin saflığını qoruyaraq onları həmin dövrün Müsəlmanları arasında bərqərar etməkdir.[2] Bu ictimai proses Müsəlman Şərqində sufizmi də bidət kontekstində görən İbn Teymiyyə (v.1328) modeli ilə başlayıb sələfiliklə davam edən bir təcdid hərəkatı; Eyni zamanda Mücəddidilik hərəkatı kimi İslam mədəniyyəti tarixinin mühüm mərhələsini təşkil edən ikinci bir təcdid modeli[3] Əhməd Faruqi Sirhindi əl-Mücəddidi (v.1624) ilə məşhurlaşmışdır. Bu hərəkat Nəqşibəndiliklə tanınmışdır. Təriqətlər arasında mədrəsə zəminində yayılan xüsusiyyətə malik olması təhsil sahəsində meydana gətirdikləri yeniliklərin əsas səbəbi olmuşdur. Məlumdur ki, 1817-ci ildən etibarən bu ictimai proses Azərbaycanda da yayılmışdır.[4] XIX əsrin başlarından etibarən İsmayıl Siracəddin Şirvani ilə mədrəsə zəminində yayılan maarifçilik hərəkatı islahatçılıq xarakteri daşıyırdı. Kamil insan prinsipləri aşılayaraq genişləyən bu hərəkat ictimaiyyətdə ən əsası maariflənmə və vəhdət kimi birgəyaşayış ənənələri gətirərək, həm də bəzi Qafqaz xalqlarının milli azadlıq hərəkatına dinamizm qazandırmışdır.

---

[1] Təhsin, G. (1999). *"Təcdid" maddəsi*. Diyanət İslam Ensiklopediyası, İstanbul, s 234.

[2] Mövlud Uyanıq. (1990). *Günümüz İslam düşüncəsində islahat qavramı*. Journal of İslamik Research. Vol.4, Num.1. (January).

[3] Bu neo-sufizm də daxil olmaqla XVII əsrdən başlayaraq XX əsrlərə qədər davam edən dövrlərdir. Mücəddidilik düşüncəsində islahatçılıq hərəkatı tarixi demək olar ki, XVIII əsrin ortalarından etibarən başladı. (İşpirli. (1999). "İslahat" maddəsi, (s. 174-185.) Çünki İslam mədəniyyəti tarixinin "qaranlıq dövrü" hesab edilən bu əsrin astanası hər sahədə ətalətin hakim olduğu bir dövr idi. İctimaiyyətdə elmi cəhətdən zəiflik və gerilik bu hərəkatın meydana gəlmə səbəbibdir. Bütün bunlara bağlı olaraq şərq xalqlarında örfün təmərküzləşməsi və güclü təqlidçilik təmayülləri meydana gəldi. Bunlar həm də yenilik ruhu axtarışlarının əsas səbəbləridir.

[4] Niyazov, Ə. (2019). *Azərbaycanda ilk islahatçılıq hərəkatı,* Azərbaycan İlahiyyat İnstitutu. Din araştırmaları jurnalı. sayı 2 (1). Bakı, (s. 193-213).

Qafqazda bu hərəkat Şeyx Şamilin müridizm hərəkatına çevrilmişdir ki, dövrün mücəddidi alimlərindən Şueyb Əfəndi Şeyx Şamili dinin ən böyük mücəddidilərindən biri kimi qeyd etmişdir.[1]

İslam ədəbiyyatında "mücəddid" ən geniş yayılmış terminlərdəndir. Müsəlman Şərqində təcdid hərəkatının dinamizmini təşkil edən bu düşüncə Hz. Məhəmməddən (s) rəvayət olunan bir hədisə bağlıdır. Belə ki, hədisin məzmunu müsəlmanlar arasında üstüörtülü bir düşüncə formalaşmasına səbəb olmuş, xüsusilə bəzi müsəlman mütəfəkkirlərin şüurunda bu rəvayətdə müjdələnən şəxsin məhz həm də bir mütəfəkkir kimi biləcəyi qənaəti hasil olmasına gətirib çıxarmışdır. Həmin rəvayətdə Hz. Məhəmmədin belə dediyi qeyd edilir: "*Şübhəsiz ki, Allah hər yüz ilin başında bu ümmətə din işlərini yeniləyəcək bir mücəddid göndərəcək.*"[2] Hədisin mənası hər əsrdə bir mücəddidin İslam dininin kökünə qayıdış təmayüllərini həyata keçirən qabaqcıl şəxsiyyətlərdən olacağı kimi qiymətləndirilmişdir.

## *Nəticə*

Hər bir dövrün elə problemləri mövcuddur ki, onlar ümumbəşəriliyi və universal səciyyəsi ilə həmişə diqqəti cəlb edir. Belə proseslər ictimai şüur formasını və ya hər hansı bir düşüncəni, və yaxud təfəkkür tərzini meydana gətirir. Həyatın özündə cərəyan edən belə proseslər nəzəriyyələrdə öz yerini tapmaqla yanaşı mütəmadi olaraq elmi dövriyyələrdə müvafiq istilahlarla əks etdirilir. Bu baxımdan dini, elmi, mifoloji və fəlsəfi dünyagörüşlər, yaxud düşüncələr hamı tərəfindən qəbul edilmiş mənada işlədilən xüsusi sözlərdə öz əksini tapır. Belə sözlərə istilahlar deyilir. Ümumi-metodoloji xarakter daşıyan istilahlar elm, sənət, peşə kimi müəyyən ixtisas sa-

---

[1] Şuayb Əfəndi ibn İdris Hafiz əl-Baqini əl-Qandaxi. (1907). *əl-Fəridətul-Müxəmməsətül-əhadiyyə aləl-mənzumətis-samədiyyəs-safədiyyə*". Timrxanşura. (s. 118).

[2] "يبعث الله على رأس كل مئة سنة من يجدد لهذه الأمة أمر دينها"(Əbu Davud, Məlahim 1.) Hədisin Peyğəmbərə aidiyyəti haqqında hədis alimləri şübhə etmir. Hər şeydən əvvəl Əbu Davud bu hədisi Abdurrəhman İbn Şüreyhdən rəvayət etmişdir ki, bu ravi həm də Buxari və Müslim kimi hədis rəvayət edənlərin güvəndiyi siqa bir ravidir. Digər cəhətdən böyük hədis alimlərindən İbn Həcər əl-Əsqalani, İraqi, Hakim və Zəhəbi kimi hədis elminin qabaqcılları bu hədisin səhih bir rəvayət olduğunu qəbul edirlər. (Bax: İbn Həcər əl-Əsqalani Əbul-Fəzl Şəhabəddin Əhməd. (2013). *Fəthul-Bari Bi Şərhi Səhihil-Buxari*, Beyrut, 13/295; Zəhəbi Şəmsəddin ibn Əhməd ibn Osman ət-Türkmani əd-Dəməşqi. (2000). *Tarixul-İslam və vəfəyatil-məşahir vəl-alam*, İstanbul 23/180.

həsinə aid anlayışı dəqiq ifadə edən sözə və ya söz birləşməsinə deyilir və o sahənin tədqiq edilməsində və təhlil edilməsində əhəmiyyət kəsb edən bir amilə çevrilir. Bu baxımdan məhz həmin istilahlar o sahənin atributlarını təşkil edir. Çünki bu atributlar həmin sahəyə aid ən incə detalların belə aydınlaşdırılmasında əhəmiyyətli bir faktor rolunu oynayır. Həmin faktorlara əsasən vahid ümumi istiqamətləri təyin etmək mümkün hala gəlir, hadisələrin daxili məzmunlarının mahiyyəti başa düşülür, dolaşıqlıq aradan qaldırılır və problemlərin həll yolları asanlaşır.

Müsəlman Şərqində ümumdünya səciyyəli proseslərin başlanğıcı, onun müxtəlif mərhələləri və sonu həmişə elmi tədqiqatların dərin müzakirə obyekti olmuşdur. Bu səpkidə mülahizələrin çalarlığı işin təbiiliyini göstərsə də, bəzi məqamların konseptual vurğusu nə milli, nə də regional mühiti əks etdirməkdən uzaq, həqiqətlə örtüşməyən nüans olaraq qalır. Bu kimi halları təəssübkeşlik naminə yox həqiqət naminə isbat etmənin tək yolu daxili məzmunu aydınlaşdıran istilah faktorlarının özünəməxsusluğu qaydalarından düzgün istifadə etməkdir. Buna görə də bu mühitin istilahları sayılan islahat, islah, təcdid, mücəddid kimi terminlərin qaynağından öyrənilməsi və bir islahat terminalogiyası etüdü hazırlığı şərtdir. Bu kimi atributların analitik təhlili, milli-regional proseslərin tarixi-ictimai və tarixi-mədəni dövrlərin müəyyənləşdirilməsində və mübahisələrin predmeti və məntiqini anlama işində yaxından köməklik edəcəkdir.

## ***Ədəbiyyat***

1. Al-Asqalani Ebul-Fazl Shehabeddin Ehmed İbn Hecer. (2013). *Fethul-Bari Bi Sherhi Sahihil-Buxari*. Beyrut.

2. Ates Ali Osman. (1996). *İslama gore cahiliyye ve Ehli-kitab orf ve adetleri*. İstanbul.

3. Curcani Seyyid Sherif. (2003). *Kitabut-tarifat*. Beyrut.

4. Gorgun Tahsin. (1999).*“Tecdid” maddesi*. İstanbul: Diyanet İslam Ensiklopediyası.

5. D.İ.A.. (2016). *Diyanet İslam Ensklopediyası*. İstanbul.

6. Heyet. (2005). *Elmihal*. Ankara: Turkiye Deyanet Veqfi yayınları. (I-II).

7. Heyet. (2016). *İslam huququ (İslam huququna girish, aile huququ, miras ve ceza huququ).* İstanbul.

8. Qaragoz, İ. (2007). *"Muceddid" maddesi, Dini Qavramlar Sozluyu*. Ankara: Deyanet İshleri Bashqanlıgı Yayınları.

9. Qahraman, A. (2007*). Fiqh usulu*. (Tercume eden: M. Camalov), Bakı.

10. Karaman Xayraddin. (2007). *İslam huquq tarixi,* İstanbul.

11. Karimova, A. (2019). *Ahmad bay Agaogluna gore İslam tahsil sisteminin ve medeniyetinin problemlerinde islahat zerureti*, Metafizika jurnalı, (ISSN 2616-6879). Cild 2. Say 3. Sira 7.

12. Lugat. (2005). *Klassik Azerbaycan edebiyyatında ishlenen ereb ve fars sozleri lugati*. Bakı: Sherq-Qerb.

13. Merad Ali. (1972). *Le reformisme musulman en Algerie de 1925 a 1940*. Paris.

14. Uyanıq, M. (1990). *Gunumuz İslam dusuncesinde islahat qavrami*. Journal of Islamic Research, Vol.4, Num.1. (January).

15. Niyazov, A. (2019). *Azerbaycanda ilk islahatciliq herekati*, Azerbaycan İlahiyyat İnstitutu. Din arashtirmalari jurnali. Sayi 2 (1). Baki.

16. İbn Ashur & Mahammad Tahir. (2013). *İslam huquq felsefesi. Gaye problemi. Meqasidush-Sherietil-İslamiyye.* (Tercume: V. Akyuz - M. Erdogan).

17. İbn Badis & Sheyx Abdulhemid ibn Mehemmed Mustafa el-Mekki. (1982). *Tefsiru İbn Badis fi mecalisit-tezkir min kelamil-hakimil-xabir*. Qahire.

18. İbn Faris & Ebul-Huseyn Ahmad ibn Faris ibn Zekeriyya. (2011). *Mucem Meqayisul-Luga*. Tehqiq: Abdussalam Mehammed Harun, Beyrut: Daru-Cil. (I-III).

*DOI 10.29228/metafizika.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

19. İbn Manzur & Ebul-Fadl Cemaleddin Mehammed b. Mukrim. (1968). *Lisanul-ereb.* Beyrut: Daru-sadr. (I-XV).

20. Mehmet, İ. (1999). *Islahat maddesi.* İstanbul: Diyanet İslam Ensiklopediyası.

21. Jaseph, S. (1977). *İslam huququna girish.* (Tercume: Mehmet Dash-Abdulqadir Shener). Ankara.

22. Sheyx Hashim Mehammed. (1989). *Silsiletul-Minhac*. Kuveyt: Mektebetud-Darul-beyan.

23. Shuayb Efendi ibn İdris al-Baqini al-Qandaxi. (1907). *el-Feridetul-Muxemmesetul-ehadiyye alel-menzumetis-samediyyes-safediyye".* Timrxanshura.

24. Ramazan, Y. (2008). *Din, tecdid ve reform qavramları uzerine mulahizele.,* Milel ve nihal dergisi. (May-Avgust). (cild 5. sayı 2).

25. Zeydan, Abdulkerim. (1969). *el-Medxel li dirasetish-sherietil-İslamiyye*. Bagdad.

26. Zehebi Shemseddin ibn Ehmed ibn Osman et-Turkmani ed-Demeshqi. (2000). *Tarixul-İslam ve vefeyatil-meshahir vel-alam.* İstanbul.

***Dr. Ahmad Niyazov***

## *Terminological Bases of the Concept of Reform: Analytical Observation*

*(abstract)*

*Knowing and applying correct spelling rules in Persian based on the Arabic alphabet, has been a pressing problem of the day and always challenged thinkers since ancient times. A number of objective changes and processes that occur during the development of the language are in some sense reflected in the spelling.*

*One of the unchangeable qualities of humanity is development. Man is a thinking being and his mind power, in addition to considering the paradoxes of the current situation, has always made the parameters of future life parameters the subject of discussion. Modern technology and scientific achievements are formed on the basis of human thinking ability. From this point of view, there are periods in the history of mankind that are imprinted in memory as a beginning of the new century or a certain stage, carrying the benchmark features. As such a concept, the term "reform movement" remained in history. The reform, which represents the radical changes in society and social life, expresses the innovative activity, reconstruction, and innovative thoughts achieved through the implementation of progressive ideas. Refor-*

*mism as an event in terms of universal cultural and spiritual values has often been reflected in the world literature. So, the heyday of medieval Western culture and the Eurocentric tendencies of social and cultural reality, defined "as the greatest progressive revolution" (F. Engels), were denoted in the Western world by the French word "Renaissance". Those who consider this process as a stage in the world history and world culture taking place in the East, call this advanced movement and related changes the "Eastern Renaissance". In fact, the Muslim East often used specific terms in defining reforms. The fast development of urban culture in the new direction, the uniqueness of the universal processes or values that give impetus to the development of the history of mankind, having acquired a specific character in the context of the East at the common methodological level, has always been expressed in accordance with oriental principles. From this standpoint, the reformist movements in the Muslim East are noted within the scientific community under various terms. Thus, the concept, which is a movement by its meaning, is expressed in periodicals and in the scientific community of both the Muslim East and other societies, in different terms that have the same meaning. These include the terms ehya / الاحياء, islah / الاصلاح, nahda / النحضة, tajdid / التجديد and tajaddud / التجدّد, along with such concepts as Revival, Renaissance, Reform, Enlightenment and others in the Azerbaijani scientific circles. The article consists of an analytical observation of these terms.*

***Keywords**: Term, reform, East, West, Azerbaijan, Muslim.*

***Др. Ахмед Ниязов***

## ***Терминологические основы концепции реформирования: аналитический анализ***

*(резюме)*

*Одним из неизменных качеств человечества является развитие. Человек суть мыслящее существо и сила его мысли, помимо рассмотрения парадоксов нынешней ситуации, всегда делала предметом обсуждения параметры будущей жизни. С этой точки зрения в истории человечества есть такие периоды, которые запечатлены в памяти как начало нового века или определенного этапа и несут в себе характерные черты. В качестве такого понятия в историю вошел термин «реформаторское движение». Реформа, которая представляет собой радикальные изменения, происходящие в обществе и общественно-социальной жизни, выражает инновационную активность, реконструкцию и инновационные идеи, достигнутые благодаря реализации прогрессивных идей. Реформаторство как событие с точки зрения общечеловеческих культурных и духовных ценностей часто находило отражение в мировой литера-*

**_Beynəlxalq Metafizika Mərkəzi_** **_DOI 10.29228/metafizika._**
**_Metafizika jurnalı_** **_ISSN 2616-6879 (Print)_**
**_2020, cild 3, say 2, sıra 10_** **_ISSN 2617-751X (Online)_**

*туре. Так расцвет средневековой западной культуры и европоцентрические тенденции социальной и культурной действительности, определяемые «как величайшая прогрессивная революция» (Ф. Энгельс), в западном миреобозначались французским словом «ренессанс». Те, кто рассматривает этот процесс как этап мировой истории и мировой культуры на Востоке, называют такое передовое движение и связанные с ним изменения "Восточным Ренессансом". В действительности, мусульманский Восток часто использовал специфические термины в определении реформ. Быстрое развитие городской культуры в новом направлении, уникальность универсальных процессов или ценностей, дающие импульс развитию истории человечества, приобретя специфический характер в контексте Востока с позиций общей методологии, всегда выражались в соответствии с восточными принципами. С этой точки зрения реформаторские движения на мусульманском Востоке нашли свое отражение в научном сообществе под разными терминами. Так, концепция, представляющая собой движение с точки зрения значения, выражается в периодических изданиях и в научном сообществе как мусульманского Востока, так и других обществ, разными терминами, имеющими одинаковое значение. Они охватывают такие понятия, как эхъя/الاحياء, ислах/الاصلاح, нахда/النحضةтаджадид/التجدي-د и таджаддуд/التجدّد, в том числе возрождение, преобразование, реформа, просвещение и прочие концепции, имеющие хождение в научной среде Азербайджана. Статья заключается в аналитическом рассмотрении этих терминов.*

**_Ключевые слова:_** *Термин, Реформа, Восток, Запад, Азербайджан, Мусульманин.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 23.05.2020*
*Təkrar işləməyə göndərilmişdir: 28.05.2020*
*Çapa qəbul edilmişdir: 01.06.2020*